

Əbülfət MƏDƏTOĞLU

# Mənim bu dünyada kimim var? - dedi

## Ustadım Ənvər Əhmədə

Yazıma başlamamışdan öncə bir məqamı diqqətə çatdırmaq istəyirəm. Bu da layihəmə uyğun olaraq, yaradıcılığına üz tutduğum alim, şair və ən vacibi böyük Qarabağ sevdalı gözəl insan Ənvər Əhmədlə bağlıdır. Onu lap erkən yaşlarımdan tanımışam. Özünəməxsus bir KİŞİ idi. Sözü də, işi də bir-birini tamamlayırdı. Mən onu o vaxtkı Xankəndində, 1976-cı ildə görmüşdüm. Burada fəaliyyət göstərən Pedaqoji İnstitutda işləyirdi. Kəndimizdə "Qarabağnamə"lərdən birinin müəllifi olan, Azərbaycanın böyük ziyalılarından biri, şair Mirmehdi Xəzani dəfn olunmuşdu. Onun qəbir üstü məqbərəsi ilə bağlı həmin instituta getmişdim. Belə ki, institutun tanınmış müəllimlərindən, alimlərindən biri olan Nəcəf Quliyev burada çalışırdı və o da Mirmehdi Xəzaninin yaradıcılığından araşdırmalar aparıb, doktorluq elmi dərəcəsini almışdı. Ona görə də məsləhətinə, bir az da maddi yardım dəstəyi üçün onun ünvanına getmişdim. İnstitutda gördüm Ənvər müəllimi. Bir şair kimi tanıdığım, mütaliə etdiyim həmin o KİŞİ ilə ilk dəfə məhz Xankəndi Pedaqoji İnstitutun foyesində qarşılaşdım...

İllər ötdü, Qarabağ hadisələri tüğyan etdi və məhz Ənvər Əhmədin təşəbbüsü və həm də bir növü israrı nəticəsində həmin institut Ağcabədiyə köçürüldü. Beləcə o institutun, necə deyərlər "kitabı" bağlanmadı. Ənvər müəllim o institutun yaşaması və fəaliyyəti üçün əlindən gələni etdi. Bu gün də həmin institut Pedaqoji Universitetin filialı kimi Ağcabədidə fəaliyyətini davam etdirir...



Bu, bir giriş idi, xatırlatma və Ənvər müəllimə olan sevgimə görə bunu mütləq qeyd etməli idim. O ki, qaldı Ənvər Əhmədin söz dünyasına... Bu, tamam fərqli bir aləmdi. Onu oxuyanda Azərbaycanı, xüsusilə onun Qarabağ bölgəsini gəzib-dolaşırsan. Hər daşını, hər çiçəyini ziyarət edirsən. Ənvər Əhməd Qarabağ fədaisi, Qarabağ sevdalısı idi. Sözünün əvvəli də Şuşa idi, sonu da. Ona görə də daha çox Vətəndən, Qarabağdan, Şuşadan, torpaqdan yazırdı. Hər görüşümüzdə də elə bunlardan danışırdıq. İndi isə masamın üstündəki "Salam, ay anası ölmüş oğullar" kitabını vərəqləyirəm Ənvər Əhmədin. Diqqətimi "Mənim bu dünyada kimim var, Allah?!" şeiri çəkir. Oxuyuram. Oxuduqca da elə bilirəm ki, şeiri Ənvər müəllim pıçıldayır mənə. Əgər izləyənlər olubsa, yəqin ki, təsdiqləyərlər. Onun özünəməxsus şeir deməyi var idi. Mütləq diqqəti çəkirdi bu avaz. Və indi də qulaqlarımda səslənir. Ənvər Əhməd deyir ki:

Ömrümün yoluna çöküb duman, çən,
Məni bu dərd-qəmə bağışlama sən,
Çiçəklər solacaq, güllər solacaq,
Bizsiz bu dünyanın gözü dolacaq
Mənim bu dünyada kimim var, Allah?!
Qəlbimdə qırılmış simim var, Allah.

Mən 1999-cu ilin martında yazılmış bu şeiri oxuyanda yaddaşımın bir küncündən işartının közərdiyini gördüm və yadıma "Şuşa" nəşriyyatında çap olunmuş "Ehtiyacın elçi daşı" kitabım düşdü. Xatırladım ki, həmin kitabda mən də Allaha üzümü tutub bir az oxşar, bir az fərqli cəhətdə ondan soruşmuşdum ki, mənim bu dünyada kimim var? Yaddaşımda oyanan bu misra elə bil ki, iç dünyamı silkələdi. Və anladım ki, Ənvər müəllimin söylədiyi kimi, ömür yolumuzda duman, çənin, qar-boranın olması, bu illər ərzində dərdə, qəmə bələnməyimiz, solan çiçəkləri, gülləri ağrı ilə seyr etməyimiz bəlkə də elə bu dünyada bir kimsəmizin olmamasından qaynaqlanıb. Bəlkə də bizim bir kimsəmiz olsaydı, bütün bunlar olmayacaqdı?! Bilmirəm, bu məntiqdə, bu yanaşmada haqlıyam yoxsa yox, həqiqətən bu gün də fikirləşirəm ki, mənim bu dünyada kimim var axı. Elə o düşüncələr də məni həmin o şeirimin doğulduğu məqama çəkib apardı, xatırlatdı o şeiri mənə. Onda yazmışdım ki:

Mənim kimim var, səndən savayı
Başımı dizinə qoyub, ağlayım.
Olub-keçənləri salıb yadıma
Dərdimin qaysağın soyub, ağlayım.

Bəli, kimsəsizlik, tənhalıq həm çəkilən, həm dözülən, çəkildikcə, dözüldükcə ömrü kirkirədə üyüdən, gözün baxa-baxa əridən bir dərddi. Onun hələ ki, kiməsə iynə ucu boyda xoş olduğunu eşitməmişəm, görməmişəm. Lakin onun bir xüsusiyyəti də var ki, o da dözümə dözüm əlavə edir, inadı bir az da artırır. Çarpışmağa, vuruşmağa vadar edir adamı. Deməli, bu kimsəsizliyin damarında sevgi var. O da maqnit kimi çəkir səni özünə. Baxmayaraq ki, ömrü əridir, amma o ömürdən nişanə olan nələrsə qalır. Xüsusilə də SEVGİ! Deməli, Ənvər müəllim də Allaha üz tutub mənim bu dünyada kimsəsiz olduğumu və bunun səbəbini soruşanda elə-belə poetik məntiqə söykənməyib, şairlik etməyib. Onun məramı, məqsədi Allahla söhbətdə içimdəkini oxucuya demək olub. Yaşadığını misralara köçürtmək olubdur və bunu da həmişəki kimi ustalıqla edibdi. Yazıb ki:

Ömür külək kimi əsib keçəcək,
İnsanlar həyatdan quş tək köçəcək.
Hardasa şam kimi sönəcəyik biz,
Şirin xatirəyə dönəcəyik biz.
Mənim bu dünyada kimim var, Allah?!
Qəlbimdə qırılmış simim var, Allah.

Bu, bir həqiqətdir ki, (dəfələrlə vurğulasam da, yenə demək, yazmaq zorundayam - Ə.M.) gələn gedir. Kimsə bu dünyanı tutub qalası deyil. Ən böyük yaş həddi min il də olsa, deməli, bir gün bitəcək. Amma insan bu dünyadan külək kimi, meh kimi ötüb gedərsə, izi, sözü qalmazsa, bu, bir az ağrılı olar. Təkcə özü üçün yox, həm də çevrəsi üçün də ağrılı olar. Axı var olduğunu səndən sonra var olanlara xatırladacaq nələrsə etmək lazımdı. Bax, bu prizmadan baxanda, bu bucaq altında məsələyə nəzər yetirəndə onda Ənvər müəllimin şam kimi sönən bir şair olduğunu qəbul etmək çox asan olur. Çünki o, həqiqətən ədəbiyyatımız üçün, şeirimiz üçün, elmimiz üçün, təhsilimiz üçün ömrünü şam etmişdi. Ona görə də tələbələri tərəfindən, oxucuları tərəfindən xatırlanır, anılır. Şəxsən bu yazdığım fikrin həyatda şahidi olmuşam. Keçmiş tələbələrinin Ənvər müəllimə necə sarıldıqlarını görmüşəm. Bax, onda da mənim könlüm qübar edib. Mən də özüm-özümə düşünmüşəm ki, yaşadığım həyatda bir tükdən asılı vəziyyətdə kimsəsiz olmaq necə də ağrılıdı. Ən azından bu ağrını duyanın, bu ağrına bir gilə göz yaşı tökənin yoxdursa, deməli kimsəsizsən... deməli:

Taleyim asılıb nazik bir simdən
Fərqim hiss olunmur cansız cisimdən.
Adlıq halındakı adlı isimdən -
Bir nəfəs, bir hənir duyub, ağlayım.

Düşünməyin ki, nostalji duyğular və bir də çəkdiklərim məni kövrəldib. Necə deyərlər, qocalıq öz işini görüb və görür. Bu cür düşünsəniz də sizi qınamayacam. Çünki siz də haqlısınız. Yəni hər kəsin görmək, dəyər vermək imkanı öz əlindədi. Bu mənada Ənvər müəllimin şeirinin sonuncu bəndində söylədiyi fikirlər, yəni misraların fikir yükü həqiqətən çox düşündürücüdü. Mən o misraların içərisində təkcə Ənvər müəllimin yaşantısını yox, həm də öz yaşantımı görə bilirəm, yaşaya bilirəm. Onlar təkrar mənə hopurlar, təkrar mənə yüklənirlər. Hətta mənə elə gəlir ki, artıq adama, yersiz, yurdsuz adama, gərəksiz adama çevrilirəm. Çünki səsim də içimdə batır, sözüm də öz içimdən, bir az da sığındığım dörd divardan kənara çıxmır. Bu da səbəbsiz deyil. Nə o sözü gözləyən var, nə o səs üçün darıxan. Ona görə də pessimist duyğular, kövrək notlar üstələyir məni. Və Ənvər Əhmədin də misraları burda mühüm rol oynayır:

Dönübdür ömrümün üzü dünyadan,
Yağışlar yuyacaq bizi dünyadan,
Baş götürüb bu dünyadan qaçımmı?
Ürəyimi hər kimsəyə açımmı?
Mənim bu dünyada kimim var, Allah?!
Qəlbimdə qırılmış simim var, Allah.

Həqiqətən, vətənsiz günlərimizdə, 30 il həsrətini çəkdiyimiz Qarabağsız anlarımızda düşünürdük ki, dünyanın üzü bizdən dönüb. Öz-özümüzə pıçıldayırdıq ki, göylər də bizdən üz çevirib. Amma zaman bizim yanıldığımızı sübut etdi. Sadəcə o sübuta qədər zaman bizə həm də dözməyi öyrətdi, dözümlü olmağı təlqin etdi. Biz də o dözüm şinelinin içindən çıxıb Şuşaya gedə bildik. Şuşada "Vaqif poeziya günləri"ndə xoş anlar yaşadı. Təəssüf ki, bu anları Ənvər müəllim görə bilmədi. Amma elə arzu edirdi ki, Şuşanı görməyi... Mən onun duyğularına bələd bir oxucu kimi həm də rəhmətlik Ənvər müəllimin dediyi kimi, balaca qardaş kimi Şuşada onun ruhunun dolaşdığına inandım. Çünki Ənvər Əhmədin Şuşa sevgisi mütləq onun ruhunu Qarabağa aparıbdı və mən də bu dünyada hər bir sözümdə, hər bir anımda sığındığım, biət etdiyim sevgini yenə özümlə birlikdə Şuşaya da apardım, Tuğa da apardım...

İndi isə birmənalı şəkildə həmin o sevgi üçün, o yaşam üçün etdiyim duaların fərqinə vararaq, bu qənaətə gəlmişəm ki, ən böyük üzərrik tonqalı sevgilər üçün yandırılmalıdı. İstər fərdi sevgilər üçün, istər özəl sevgilər üçün, istər bütün sevgilər üçün. Bax, şeirimin sonunda da elə həmin o məramı, məqsədi, lap açığını desəm, inancımı ifadə etməyə çalışmışam və üzümü yenə Allahıma tutub pıçıldamışam ki:

Çaşdırdı bu yaşda məni gözəllik,
Yandıran olmadı mənə üzərlik.
Hanı o zirvələr, o bağ, düzənlik?
Baxıb göz dolusu, doyub, ağlayım.

Bəli, indi o bağ da, o düzənlik də, o yer, o yurd da artıq var və indi ona uzaqdan baxıb ağlamaq yox, ona sarılmaq, onu şənləndirmək, onu daha da gözəlləşdirmək zamanıdır. İnanıram ki, belə də olacaqdır. Çünki o dağa, o düzə, o zirvəyə şəhid qanıyla qovuşmuşuq. Özü də təkcə döyüş meydanındakı şəhid qanı ilə yox, həm də qovuşmaq arzusu ilə təlaşlanıb partlayan, qırılıb yarı yolda qalan ürəklərin də qanı ilə qovuşmuşuq. O cümlədən, ustadım, unudulmaz Ənvər Əhmədin də!